**1.** Sabir və Vahid müəyyən sayda qələmi elə böldülər ki, Sabirə 39, Vahidə isə bütün qələmlərin 48%-i çatdı. Nə qədər qələm var idi?
A) 52 B) 80 C) 68 D) 100 E) 75

*(27 aprel 2025, DİM)*

**2.** Velosipedçi 24 $\frac{\text{km}}{\text{saat}}$ sürətlə gedərək müəyyən məsafəni 1,5 saata qət etdi. Velosipedçi həmin yolu 18 $\frac{\text{km}}{\text{saat}}$ sürətlə neçə saata geri qayıdar?
A) $2\frac{2}{3}$ B) $1\frac{1}{3}$ C) $2\frac{1}{3}$
D) 3 E) 2

*(20 aprel 2025, DİM)*

**3.** Bir ədədin 25%-i digər ədədin 50%-nə bərabərdir. Bu ədədlərin fərqi 60 olarsa, ədədlərin cəmini tapın.

*(20 aprel 2025, DİM)*

**4.** Düzbucaqlının uzunluğunu 40%, enini 20% azaltdıqda, sahəsi neçə faiz azalar?
A) 50% B) 40% C) 30%
D) 48% E) 52%

*(13 aprel 2025, DİM)*

**5.** $\frac{x}{5} = \frac{21}{15}$ tənasübündən x-i tapın.
A) $\frac{1}{7}$ B) 9 C) $\frac{25}{7}$
D) $\frac{7}{25}$ E) 7

*(13 aprel 2025, DİM)*

**6.** Məktəb olimpiadasında 200 oğlan və 300 qız iştirak edir. Qızlar bütün iştirakçıların neçə faizini təşkil edir?
A) 40% B) 35% C) 65%
D) 60% E) 30%

*(5 may 2024, DİM)*

**7.** $\frac{a}{2} = \frac{b}{4} = \frac{c}{6}$ və $a \cdot b \cdot c = 384$ olarsa, $a + b + c$ ifadəsinin qiymətini hesablayın.

*(5 may 2024, DİM)*

**8.** Üç müxtəlif binanın hər birinin birinci mərtəbəsinin hündürlüyü 4 metr, digər mərtəbələrin hündürlüyü isə 3 metrə bərabərdir. Bu binaların hündürlükləri nisbəti 8 : 11 : 14 şəklindədir və hündürlükləri cəmi 66 metrdir. Hündürlüyü ən böyük olan bina neçə mərtəbədir?

*(5 may 2024, DİM)*

**9.** 200 ədədi 1:3:6 nisbətində üç hissəyə ayrılmışdır. Alınmış ədədlərdən böyüyü ilə kiçiyinin fərqini tapın.
A) 100 B) 50 C) 40 D) 110 E) 60

*(21 aprel 2024, DİM)*

**10.** 8 saata 480 $km$ yol gedən kater həmin sürətlə 6 saata nə qədər yol gedər?
A) 420 $km$ B) 240 $km$ C) 320 $km$
D) 180 $km$ E) 360 $km$

*(7 aprel 2024, DİM)*

**11.** $\frac{17}{20}$ adi kəsrini faizlə ifadə edin.

A) 850 %  B) 8,5 %  C) 0,85 %
D) 17 %  E) 85 %

*(7 aprel 2024, DİM)*

**12.** Bir neçə kürəcik Arif və Günay arasında sayları uyğun olaraq 2 və 3 ilə düz mütənasib olmaqla bölüşdürüldü. Günaya Arifdən 10 kürəcik çox düşərsə, ümumi neçə kürəcik bölüşdürüldü?

A) 48  B) 50  C) 54  D) 46  E) 52

*(17 mart 2024, DİM)*

**13.** Diaqramda 2 ay ərzində satılan məhsulların sayı göstərilmişdir. Yanvar ayında satılmış skaner və printerlərin cəmi fevral ayında satılmış maus və noutbukların cəminin neçə faizini təşkil edir?




A)75%  B) 25%  C) 60%
D) 50%  E) 30%

*(17 mart 2024, DİM)*

**14.** $\frac{x+2y}{y} = 3$ olarsa, $\frac{7x}{y}$ nisbətini hesablayın.

A) 3  B) 5  C) 2  D) 7  E) 9

*(30 aprel 2023, DİM)*

**15.** Məhsulun qiyməti 50 % artdı. Sonra isə yeni qiyməti 50% yenidən artırdılar. İlkin qiymət neçə faiz artdı ?

A) 150% artdı  B) 100% artdı
C) 125% artdı  D) 175% artdı
E) 75% artdı

*(30 aprel 2023, DİM)*

**16.** 2,8 kq meyvə 19,6 manatdırsa, 3 kq eyni meyvə neçə manatdır?

A) 21 manat  B) 19,9 manat
C) 24 manat  D) 25 manat
E) 22,5 manat

*(30 aprel 2023, DİM)*

**17.** Cəmi 120 olan iki ədəddən birincinin 15%-i digərinin 45%-nə bərabərdir. Bu ədədlərin fərqinin modulunu tapın.

A) 60  B) 40  C) 65  D) 80  E) 30

*(16 aprel 2023, DİM)*

**18.** 0,275 ədədini faizlə ifadə edin.

A) 2,75%  B) 27,5%  C) 275%
D) 0,275%  E) 25,7%

*(16 aprel 2023, DİM)*

**19.** Sahədə bir düz xətt üzərində A nöqtəsindən başlayaraq B nöqtəsi də daxil olmaqla aralarındakı məsafə eyni olmaqla 99 ağac əkilib. C nöqtəsi A və B nöqtələri arasında yerləşir. $AC:CB = 3:4$ olarsa, C nöqtəsi A-dan başlayaraq neçəncidir?

*(16 aprel 2023, DİM)*

**20.** İclasda iştirak edən 300 nəfərdən 225 nəfəri səs verib. İclas iştirakçılarının neçə faizi səs verib?

A) 25% B) 50% C) 60%
D) 75% E) 80%

*(9 aprel 2023, DİM)*

**21.** Səyahətçi 40% düzənlikdə, 26% dağda və qalan 102 km-i isə çayda hərəkət edib. Səyahətçi dağda neçə km gedib?

A) 50 B) 78 C) 80 D) 25 E) 36

*(9 aprel 2023, DİM)*

**22.** İşin 30%-i görülübsə, işin hansı hissəsi ***görülməmiş qalar?***

A) 0,5 B) 0,1 C) 0,7
D) 0,3 E) 0,6

*(1 may 2022, DİM)*

**23.** Uzunluqları 200 $sm$, 250 $sm$ və 300 $sm$ olan taxta parçalarını usta elə kəsməlidirki, hissələrin hamısı eyni ölçüdə olsun. Usta hər kəsimə 10 saniyə vaxt ayırmaqla, işi ən qısa neçə dəqiqəyə qurtarar?

A) 2,5 dəq B) 3 dəq C) 4 dəq
D) 2 dəq E) 3,5 dəq

*(1 may 2022, DİM)*

**24.** Diaqramda iki aylıq maus, noutbuk, skaner və printer satışının sayı göstərilib. Yanvar ayında satılan maus və noutbuk sayı fevral ayında satılan skaner və printerin sayının neçə faizini təşkil edir?




*(1 may 2022, DİM)*

**25.** Ələddin 120 manatın 30 %-ni xərclədi. Ələddinin nə qədər pul xərclədi?

A) 36 B) 84 C) 26
D) 30 E) 12

*(1 may 2022, DİM)*

**26.** $\frac{x-a}{x+a}=\frac{b}{c}$ nisbətindən $x$-i tapın. $(c\neq 0)$

A) $\frac{a(b+c)}{c-b}$ B) $\frac{a(b-c)}{c+b}$

C) $\frac{b(b+c)}{a-b}$ D) $\frac{a(b+c)}{c-a}$

E) $\frac{b(b+c)}{a+b}$

*(30 aprel 2022, DİM)*

**27.** Üç ardıcıl cüt natural ədədin cəminin 80%-i 100,8 olarsa, bu ədədlərdən böyüyünü tapın.

A) 40 B) 44 C) 38
D) 42 E) 36

*(24 aprel 2022, DİM)*

**28.** Aqil ilk gün kitabın 40%-ni, ikinci gün 5%-ni, üçüncü gün isə 110 səhifəsini oxuyub kitabı bitirdi. Kitab ümumilikdə neçə səhifədir?

*(24 aprel 2022, DİM)*

**29.** Ərintidə 75 q qızıl və 300 q gümüş var, bu ərintinin neçə faizini qızıl təşkil edir?

A) 25% B) 20% C) 24%
D) 30% E) 40%

*(23 aprel 2022, DİM)*

**30.** Üç binanın hündürlükləri nisbəti 11:14:17 və hündürlükləri cəmi 84 m-dir. Hər binanın ilk mərtəbəsi 4 m və digər mərtəbələri isə 3 m olarsa, ən kiçik binanın neçə mərtəbəsi var?

*(23 aprel 2022, DİM)*

**31.** Tərkibində 15% mis olan 600 kq filizdən 72 kq mis alınmışdır. Neçə faiz mis itkiyə gedib?

A) 20 % B) 8 % C) 15 %
D) 10 % E) 5 %

*(17 aprel 2022, DİM)*

**32.** Avtobus $2\frac{3}{8}$ saata 190 km məsafə qət edir. Həmin sürətlə avtobus $5\frac{1}{8}$ saata nə qədər məsafə qət edər?

A) 300 km B) 400 km C) 360 km
D) 310 km E) 410 km

*(17 aprel 2022, DİM)*

**33.** 2 eyni boru hovuzun yarısını 3 saata doldurursa, 1 boru hovuzun $\frac{1}{3}$ hissəsini neçə saata doldurar?

A) 4 B) 6 C) 12 D) 8 E) 3

*(16 aprel 2022, DİM)*

**34.** Bir kater 48 km/saat sürətlə 5 saata getdiyi yolu 4 km/saat sürətlə neçə saata gedər?

A) 6 B) 12 C) 60 D) 10 E) 20

*(16 aprel 2022, DİM)*

**35.** Kamilin 90 manat pulu var. O pulunun 10%-nə dəftər aldı. Kamilin neçə manat pulu qaldı?

*(16 aprel 2022, DİM)*

**36.** $\frac{5}{x} = \frac{y}{10}$ olarsa, $xy$ hasilini tapın.

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1E 2E 3 (180) 4E 5E 6D 7(24)

8(9) 9A 10E 11E 12B 13C 14D

15C 16C 17A 18B 19(43) 20D

21B 22C 23D 24(50) 25A 26A

27B 28 (200) 29B 30 (7) 31A 32E

33A 34C 35 (81) 36 (50)